Xarici siyasətdə balans axtarmağın potensial imkanları da çox məhdud olur. Səbəb odur ki, dövlət daim başqalarına güzəşt etməyə çalışır. Bu halda müəyyən bir həddə dövlətçiliyin "qırmızı xətti" ilə kənar qüvvənin maraqları arasında seçim etməli olursan. Onda bütövlükdə xarici siyasət dolaşığa düşür və onun nizamı pozulur. Faktiki olaraq dövlət dalana dirənmiş olur. Cənubi Qafqazda Ermənistanın timsalında bunun nümunəsi vardır. İrəvan əvvəlcə Rusiyanın maraqlarını təmin etməklə məşğul oldu. Bir neçə il sonra bu çərçivənin manevr imkanları tükəndi. Kreml zərrə qədər də öz marağından kənara çıxmanı qəbul etmədi. Onda Ermənistan Qərbin maraqları ilə Rusiyanın maraqlarını balanslaşdırmağa cəhd göstərdi. Bunun iki faciəvi nəticəsini göstərə bilərik.

Birincisi, Ermənistan parlamentində terror hadisəsi törədildi. Bu hadisə ilə İrəvan balanslaşdırma mövqeyindən xeyli çəkildi. İkinci hadisə Ermənistanın Avropa İttifaqına assosiativ üzv olmaq cəhdi ilə əlaqədar baş verdi. Kremldən olan təpki S.Sarkisyanı dərhal Avrasiya İqtisadi İttifaqına daxil olmağa məcbur etdi. Həmin hadisədən sonra Ermənistan rəhbərliyi "və-və" prinsipi üzrə siyasət yeridə biləcəyini bəyan etdi. Yəni "ya-ya" güclərdən birini seçməkdirsə, "və-və" hər iksini eyni zamanda seçmək deməkdir. Bunu ekspertlər "eyni zamanda iki stulda oturmaq" kimi qiymətləndirdilər. Və Aİ rəsmiləri məcbur olub açıq bəyan etdilər ki, bu, mümkün deyil, İrəvan çaşıb qalar. Bununla da kənar qüvvələrin maraqlarını balanslaşdırmağın ikinci erməni ssenarisi də puç oldu. Nəhayət, N.Paşinyan birbaşa müstəqillik vurğusu yaparaq Rusiya ilə yanaşı Qərblə də yaxın olmaq istəyini bəyan etdi. Bu cəhd də dalana dirənib. Kreml dəfələrlə erməni rəhbərliyinə xəbərdarlıq göndərib. Şübhə yoxdur ki, son nəticədə üçüncü cəhd də nəticəsiz qalacaq. Çünki müstəqilliklə başqalarının maraqlarını balanslaşdırmaq xətti bir-biri ilə ziddiyyət təşkil edir.

## Yeni mərhələdə başlıca prinsip: öncə Azərbaycan!

Bu müqayisələrin fonunda Azərbaycanın xarici siyasətinin milli maraqlar üzərində qurulduğunun incəlikləri aydın olur. Faktlara nəzər salaq. Keçən əsrin 90-cı illərinin ikinci yarısında Azərbaycanın yeritdiyi xarici siyasəti qəbul etmək istəməyən və onu öz maraqlarına tabe etdirməyə çalışan qüvvələr dövlət çevrilişlərinə cəhd göstərdilər. Ancaq o zaman ulu öndər Heydər Əliyev böyük qətiyyət, cəsarət və müdriklik göstərək, apardığı kursu dəyişmədi. "Əsrin müqaviləsi" Azərbaycan rəhbərliyinin bu cür qətiyyətli mövqeyi sayəsində imzalandı.

Bundan sonra bir sıra böyük qüvvələr Azərbaycanla münasibətlərini müsbət istiqamətdə yeniləşdirmək istəmirdilər. Lakin yenə də ulu öndər milli dövlət maraqlarını əsas tutaraq onları diplomatiya dili ilə düz yola gətirə bildi. Nəticədə, Azərbaycan tədricən regionun bütün böyük dövlətləri ilə bərabərhüquqlu əsasda əlaqələri bərpa edib, inkişaf etdirməyə nail oldu. Deməli, burada başqalarının maraqlarının balanslaşdırılmasından söhbət gedə bilməz. Aparıcı məqam Azərbaycanın milli maraqları çərçivəsində müxtəlif böyük qüvvələrin burada ortaq mövqeyə gəlməsinə nail olmaqdan ibarət idi.

Azərbaycan gücləndikcə, bu xətt daha qabarıq şəkildə özünü göstərməyə başladı. Zaman-zaman rəsmi Bakı qonşuluqda olan böyük dövlətlərlə bərabər Avropa İttifaqı və ABŞ-ın da milli maraqlarımızı nəzərə alaraq siyasət yeritmələrinə nail oldu. Bunun təsdiqi enerji layihələri, nəqliyyat sahəsində dəhlizlərin yaradılması, qarşılıqlı əlaqələrin Azərbaycanın maraqlarına uyğun sistemləşdirilməsi prosesidir. Aİ ilə əlaqələrin Brüsselin təqdim etdiyi assosiativ üzvlük şərtləri çərçivəsində deyil, Azərbaycan rəhbərliyinin işləyib hazırladığı xüsusi tərəfdaşlıq sənədi üzrə inkişaf etdirilməsi buna əyani misaldır.

Başqa nümunələr də gətirmək olar. Lakin yuxarıda vurğulanan məqamlar da göstərir ki, Azərbaycan milli maraqlarından çıxış edərək daim öz mövqeyini qoruyub və regionda hansısa geosiyasi balans yaranıbsa, bu, Azərbaycanın milli maraqlarına xidmət edən tarazlıqdan ibarət olub. Konkret ifadə etsək - Azərbaycanın milli maraqları müxtəlif qüvvələr arasında maraqlar balansının yaradılması hesabına deyil, balansın özü milli maraqlarımızın tələb etdiyi şərtlər daxilində reallaşıb.

İndi bu proses özünün yeni səviyyəsinə yüksəlir. Bunun da konkret səbəbləri vardır. Məsələ ondan ibarətdir ki, hazırkı mərhələdə qlobal miqyasda geosiyasi proseslərin sürəti daha da artıb və eyni zamanda, qeyri-müəyyənlik çoxalıb. Prezident İlham Əliyev onu vurğulayıb ki, indi bir sıra böyük dövlətlər güc mövqeyindən çıxış edirlər. Deməli, regionda istənilən vaxt gözlənilməz hadisələr baş verə bilər. Azərbaycan bu kimi hallara hazırdır və daim öz milli maraqlarından çıxış edəcək. Burada hər hansı böyük bir gücün maraqlarına uyğun öz mövqeyindən çəkilmək kimi bir şey olmayacaq. Deməli, artıq açıq və qəti bir şəkildə hər kəs bilməlidir: Azərbaycan öz milli maraqlarını kimsəyə güzəştə getməyəcək!

**Newtimes.az**

# Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısı işini plenar sessiya ilə davam etdirib

**Fevralın 20-də Bakıda, Heydər Əliyev Mərkəzində keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısı işini plenar sessiya ilə davam etdirib.**



AZƏRTAC xəbər verir ki, Azərbaycanın energetika naziri Pərviz Şahbazov Cənub Qaz Dəhlizi layihəsində iştirak edən ölkələrə və layihəni dəstəkləyənlərə minnətdarlığını bildirdi. Nazir layihənin verdiyi enerji töhfəsi ilə yanaşı, sosial baxımdan da uğurlu olduğunu, onun icrası nəticəsində yeni iş yerlərinin yaradıldığını və ölkələrin daha da inkişafına səbəb olacağını qeyd etdi. Bugünkü toplantıda Cənub Qaz Dəhlizi üzrə görülən işlərin və "Şahdəniz-2" yatağının inkişaf etdirilməsi ilə bağlı məsələlərin müzakirə edildiyini vurğulayan nazir dedi:

- Hazırda biz onun şahidiyik ki, məhz təbii qaza olan tələbat artır. Çünki onun sayəsində havaya az karbon qazı buraxılır. Biz elə bir dövrdə yaşayırıq ki, enerji təhlükəsizliyi məhz hasilatçı, istehlakçı və tranzit ölkələr arasında münasibətlərin inkişafında mühüm rol oynayır. Bu baxımdan, Cənub Qaz Dəhlizi layihəsi monumental bir işdir. Çünki hazırda Avropada bu, ilk meqalayihədir ki, enerji təhlükəsizliyinin bütün komponentlərini özündə ehtiva edir. Bizim nailiyyətlərimiz birgə işin bəhrəsidir. Çünki biz vahid komanda kimi Xəzərdə hasil olunan qazın Avropaya ən təhlükəsiz ixrac marşrutu ilə nəql edilməsinə çalışırıq. Bu gün biz Avropa qaz bazarının yaradılması yönündə işləyirik və burada rəqabətədavamlılıq, mənbələrin və marşrutların şaxələndirilməsi nəzərdə tutulur.

Cənub Qaz Dəhlizi bütün iştirakçı tərəflərin maraqlarına xidmət edir və geniş coğrafiyada enerji təhlükəsizliyinin davamlılığına töhfə verir. Çox əhəmiyyətli haldır ki, biz demək olar hər il Məşvərət Şurasının toplantısına qoşulan ölkələrin siyahısında yeni tərəfləri görürük və onlar hamısı bu layihənin əhəmiyyətindən danışır. Bu, layihənin potensial faydasını göstərir. Serbiya, Macarıstan və San-Marino ilk dəfədir ki, bu il bizə qoşulur.

İtaliyanın iqtisadi inkişaf nazirinin müavini Andrea Cioffi ölkəsinin layihə ilə bağlı bütün görüşlərdə iştirak etdiyini bildirdi, bu görüşlərin fikir mübadiləsi aparmaq üçün yaxşı fürsət olduğunu vurğuladı. Enerji təhlükəsizliyinin artırılması məqsədilə istehsalçı və istehlakçı ölkələr arasında əməkdaşlığın səmərəliliyini daha da artırmağa ehtiyacın olduğunu deyən Andrea Cioffi qeyd etdi ki, müasir dünyada enerji təhlükəsizliyi enerji siyasətinin tərkib hissəsi olaraq qalır. İtaliya hökumətinin rəsmisi Cənub Qaz Dəhlizi layihəsinin regional əhəmiyyətini vurğulayaraq bildirdi:

- TAP layihəsi bütün Balkan bölgəsinin qaz boru kəməri şəbəkəsinin inkişafına imkan verəcək. Həmçinin Cənub-Şərqi Avropada qaz nəqliyyatı üzrə şəbəkələrin və qaz satışının inkişafına kömək edəcək. TAP layihəsindən yalnız Albaniya deyil, İon-Adriatik qaz kəməri vasitəsilə TAP-a bağlı olan Xorvatiya və Monteneqro da yararlanacaq ki, bu da Yunanıstan-Bolqarıstan interkonnektor layihəsi hesabına Yunanıstandan qoşulmaq marağında olan Bolqarıstan kimi Qərbi Balkanın bütün ölkələri faydalanacaq.

Bu gün biz sessiyada həyata keçirilməsində əhəmiyyətli nəticələr əldə edilmiş Cənub Qaz Dəhlizi haqqında müzakirələr aparacağıq. Azərbaycan və layihəyə cəlb olunan digər ölkələrlə yüksək səviyyəli əlaqələrə əsaslanan Cənub Qaz Dəhlizinin açılmasında mən İtaliyanın töhfəsini bir daha vurğulamaq istəyirəm. Bu töhfənin dövlətlər arasında mükəmməl ikitərəfli əlaqələrə əsaslandığını bildirərək çıxışımda bir məsələyə də toxunmaq istəyirəm. Şaxələndirmə məsələsində digər ölkələr kimi, İtaliyanın da marağı var. Çünki məhz Avropada qurduğumuz yeni enerji birliyinin əsas ölkələrindən biri olaraq qitənin qaz təchizatının təhlükəsizliyini artırırıq.

ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri xanım Sandra Oudkirk bu tədbirə qatılmasından məmnunluğunu ifadə edərək toplantıda iştirakına görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığını bildirdi. O, Azərbaycanda hasil edilən böyük həcmdə qazın tarixdə ilk dəfə olaraq Cənub Qaz Dəhlizi ilə yaxın zamanlarda Avropa bazarlarına çatdırılacağını vurğulayaraq dedi:

- Ötən il ərzində biz Cənub Qaz Dəhlizinin sonuncu hissəsi olan Trans-Adriatik boru kəmərinin tamamlanmasında da mühüm irəliləyişə nail olduq. Əgər işlər planlaşdırılan qaydada gedərsə, 2020-ci ildə ilk qaz TAP vasitəsilə İtaliyaya və Yunanıstana nəql olunacaq. Trans-Adriatik boru kəmərinin və Yunanıstan-Bolqarıstan interkonnektorunun inşasının başa çatdırılması Azərbaycan ilə Avropa arasında siyasi və iqtisadi münasibətlərdə, eləcə də Avropanın enerji təhlükəsizliyində tarixi an olacaqdır. Mən bu cür gözəl nailiyyətləri mümkün etdiyinə görə Prezident Əliyevi və burada təmsil olunan bütün ölkələri və şirkətləri təbrik edirəm.

Birləşmiş Ştatlar bu layihə ilk dəfə on il əvvəl təklif olunandan etibarən Cənub Qaz Dəhlizini qətiyyətlə dəstəkləyib. Biz bilirik ki, o, enerji təchizatının şaxələndirilməsində Azərbaycanın və Avropanın göstərdiyi səylərdə mühüm rol oynayaraq Xəzər regionunda daha geniş iqtisadi inteqrasiyanı təmin edə bilər. Prezident Tramp bu layihənin vacibliyini vurğulayır. O, 2018-ci ildə Prezident Əliyevə göndərdiyi məktubunda Cənub Qaz Dəhlizini inanılmaz nailiyyət adlandıraraq, onu Avropaya lazım olan enerji təhlükəsizliyini təmin edən layihə kimi qiymətləndirmişdir.

Hamımızın bildiyi kimi, Cənub Qaz Dəhlizi genişlənmək məqsədilə tikilmişdir. Bunu nəzərə alaraq deməliyəm ki, o, Aralıq dənizinin şərqindən, Mərkəzi Asiyadan və Qafqazdan Avropadakı istehlakçılara daha böyük həcmdə qazın çatdırılması, onun dinc şəraitdə hasil edilməsi baxımından region ölkələri üçün fürsətdir. Birləşmiş Ştatların hökuməti bu məqsədə nail olmaqda göstərdiyiniz səyləri qətiyyətlə dəstəkləyəcək. Gələn illərdə biz regionun resurs potensialını reallaşdırmaq və onu dünyanın ən iri enerji bazarına açıq etmək üçün imkanları araşdıraraq sizinlə birlikdə işləyəcəyik.

Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson Prezident İlham Əliyevi və Azərbaycan hökumətini toplantının təşkili münasibətilə təbrik etdi. O, gözəl Bakıda olmaqdan məmnunluğunu bildirdi, Azərbaycanın əsas qlobal enerji iştirakçısı kimi artan strateji əhəmiyyətindən danışaraq dedi:

- Bu, sadəcə, dünyada ən iri infrastruktur layihələrindən biri deyil. Ümumi təhlükəsizliyimizi, rifahımızı və ətraf mühit məqsədlərimizi təşviq edən Cənub Qaz Dəhlizi bütün iştirakçılar üçün xüsusi əhəmiyyətlidir. Azərbaycan bu gün burada təmsil olunan bütün tərəflərə xidmət edən Xəzərin ehtiyatlarının dünyaya çıxarılmasında əsas rol oynadı. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan boru kəmərinin açılması ilə Azərbaycanın nefti Gürcüstan və Türkiyə vasitəsilə Avropa bazarlarına çatdırıldı. Cənub Qaz Dəhlizi hazırda təbii qaz üçün oxşar etibarlı ixrac marşrutudur. Xəzər qazı qaz təminatımızı şaxələndirməyə kömək edəcək. Yeni interkonnektorlar enerji şirkətlərimiz üçün yeni bazarlara çıxış yaradacaq və istehlakçıların tələbatlarını təmin etmək üçün qazın yeni marşrutla nəql olunmasına imkan verəcək. Bu, nəinki boru kəməri boyunca yerləşən ölkələrə, mənim ölkəmə, o cümlədən eyni qaz bazarlarında fəaliyyət göstərən hər birimizə xidmət edəcək. Birləşmiş Krallıq qlobal enerji təhlükəsizliyi məsələlərinə çox böyük əhəmiyyət verir.

Şaxələndirilmiş neft və qaz mənbələri nəinki etibarlı təchizatı, o cümlədən iqtisadi inkişafı təmin edir. Enerji bütün dünyada iş yerləri və artım üçün çox vacibdir. Biz hamımız etibarlı, təhlükəsizlik və təmin edilmiş enerji təchizatını arzulayırıq. Biz istəyirik ki, enerji iqtisadiyyatımız rəqabətədavamlı, həmçinin əlçatan olsun. Birləşmiş Krallıq neft və qaz sektorunda Azərbaycan ilə sıx əlaqələrini, o cümlədən Britaniya və Azərbaycanın enerji şirkətləri arasında uzun tarixi olan ticari münasibətləri yüksək dəyərləndirir.

Türkmənistan Prezidentinin müşaviri Yaxşıgəldi Kakayev bildirdi ki, Cənub Qaz Dəhlizi Avropa İttifaqı üçün prioritet enerji layihəsidir. Ölkəsinin enerji, rabitə və nəqliyyat sahələrində əməkdaşlığın çoxtərəfli formatının tərəfdarı olduğunu deyən Yaxşıgəldi Kakayev Türkmənistanda bu sahədə görülən işlərdən danışaraq bildirdi:

- Türkmənistan Cənub Qaz Dəhlizinin icrası ilə bağlı əldə edilən əhəmiyyətli irəliləyişi, xüsusən də may ayında Cənub Qaz Dəhlizinin birinci mərhələsinin işə salınmasını və 2018-ci ilin iyulunda TANAP layihəsinin istismara verilməsini alqışlayır. Türkmənistan da Qərb istiqamətində və Avropa ölkələri bazarını təmin etmək üçün lazım olan miqdarda təbii qazın təchizatını təşkil etmək imkanına malikdir. Şərqi Avropa ölkələrinin enerji təhlükəsizliyinə qiymətli töhfə verə biləcək mühüm infrastruktur layihələrindən biri Transxəzər qaz boru kəməridir. Bu layihənin reallaşdırılmasının texniki-hüquqi aspektlərinə dair ilk müzakirələr üçtərəfli formatda Türkmənistan, Azərbaycan və Avropa İttifaqı arasında 2011-ci ildə başlanıb. Sonradan danışıqlar beştərəfli formatda - Gürcüstan və Türkiyə də daxil olmaqla 2015-ci ildən nazir müavinləri səviyyəsində davam etdirilib. Türkmənistan Avropa istiqamətində türkmən qazının çatdırılma mümkünlüyünün müzakirəsi üzrə danışıqları bərpa və davam etdirməyə hazır olduğunu təsdiq edir. Mən əminəm ki, Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısı bu layihənin uğurla reallaşdırılmasında növbəti mühüm addım olacaq.

Türkiyənin enerji və təbii sərvətlər naziri Fatih Dönməz bildirdi ki, Cənub Qaz Dəhlizi layihəsi region ölkələrinin birgə işbirliyi həyata keçirməklə bağlı qərarını ortaya qoydu və bölgədə icra olunan digər layihələr də bundan nümunə götürməlidir. Türkiyənin TANAP vasitəsilə ilk qazı ötən ilin iyununda aldığını, artıq Yunanıstan sərhədinə qədər olan hissədə infrastruktur işlərinin tezliklə başa çatdırılmasının diqqətdə saxlandığını bildirən Fatih Dönməz TAP layihəsinin də sürətlə başa çatdırılmasına ümid etdiklərini vurğulayaraq dedi:

- Türkiyə-Azərbaycan qardaşlığı TANAP ilə bölgə coğrafiyasının sərhədlərini aşaraq yeni qitələrə və yeni zirvələrə çatdı. TANAP cənab prezidentlərimiz Ərdoğanın və Əliyevin güclü iradələri və qonşu ölkələrin uzaqgörən liderləri sayəsində ortaya çıxdı. Azərbaycanın və Türkiyənin güclü enerji baxışı sayəsində işləri birlikdə necə həyata keçirdiksə, bundan sonra da reallaşdırmağa davam edəcəyik. Bu güclü əlaqələr, bu sarsılmaz qardaşlıq və dərin məhəbbət bizim insanlığa bəxş edəcəyimiz ən böyük mirasdır.

TANAP uduzanın olmadığı tarixi bir layihədir. TANAP ilə Türkiyənin enerji sahəsində açar ölkə rolu güclənəcək. Azərbaycan tədarükçü ölkə kimi yeni bazarlara çıxa biləcək. Avropa isə mənbə ölkələrin və marşrutların şaxələndirilməsini artıra biləcək. TANAP Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfə ilə yanaşı, Türkiyənin enerji siyasəti baxımından da tamamlayıcı və dəstəkləyici amil olacaq. Bu, milli enerji və mədən siyasətimizdə açıqladığımız enerji təhlükəsizliyi üçün mühüm əhəmiyyətə malik layihədir.

"Şahdəniz-2" və Cənubi Qafqaz Boru Kəməri layihəsinin genişləndirilməsi barədə məlumat verən BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz BP-nin Cənub Qaz Dəhlizi kimi tarixi layihədə iştirak etməkdən qürur duyduğunu bildirərək dedi:

- Prezident İlham Əliyevin xüsusi, şəxsi diqqəti və dəstəyi qlobal neft və qaz sənayesində bu vaxtadək həyata keçirilmiş ən böyük və ən mürəkkəb təşəbbüslərdən biri hesab edilən bu layihənin uğurla icrasında aparıcı amil olub. Həqiqətən də bu, çox nəhəng bir layihədir. Ölkədə hərbi sektor xaricində indiyədək həyata keçirilmiş ən böyük layihədir. Belə irimiqyaslı layihələrin özünəməxsus çətinlikləri olur. Bu cür çətinliklər texniki, mühəndis, kommersiya, normativ-hüquqi və əlbəttə, geosiyasi xarakter daşıya bilər. Cənub Qaz Dəhlizi layihəsinin özünəməxsus mürəkkəbliyi bütün bu aspektləri özündə cəmləşdirir. Bu layihəni bir şirkətin, yaxud da bir ölkənin gerçəkləşdirməsi mümkün olmazdı. Bu layihənin icrası yeddi ölkənin və hökumətin, Avropa İttifaqının və digər müvafiq beynəlxalq təşkilatların, tərəfdaşlarımızın dörd ölkədəki alıcıları, tikinti işlərinə cəlb olunmuş 40 min insanı, çox sayda podratçı şirkətin, yüzlərlə icmanın, tənzimləyici orqanların, yerli icra orqanlarının və bir çox coğrafi regionda yerləşən digər maraqlı tərəflərin dəstəyi, birgə fəaliyyəti, əməkdaşlığı, əlaqələndirməni və razılaşdırmanı əhatə etdi.

TANAP-ın baş direktoru Saltuk Düzyol və TAP-ın icraçı direktoru Luka Şipati çıxış edərək Cənub Qaz Dəhlizi layihəsinin əhəmiyyətindən, Azərbaycanın regionun və Avropanın enerji təhlükəsizliyində rolundan danışdılar.

* * *

Sonra Cənubi Qafqaz boru kəmərinin genişləndirilməsi və "Şahdəniz-2" layihəsinə həsr olunan videoçarx nümayiş olundu.

Daha sonra Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin görüşünün iştirakçıları tərəfindən Birgə Bəyannamə qəbul edildi.

**AZƏRTAC**

# Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısının yekununa dair Birgə Bəyannamə imzalanıb

**Fevralın 20-də Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısının yekununa dair Birgə Bəyannamə imzalanıb.**




AZƏRTAC xəbər verir ki, sənədi toplantı iştirakçıları adından Azərbaycanın energetika naziri Pərviz Şahbazov və Avropa Komissiyasının büdcə və insan resursları üzrə komissarı Günter Ottinger imzalayıb.

İmzalanma mərasimindən sonra toplantının yekunları ilə bağlı mətbuat konfransı keçirilib.

Energetika naziri deyib ki, bu gün imzalanan "Birgə Bəyannamə"də strateji tərəfdaşlıq ön plana çəkilib və layihənin təşəbbüskarı olan Azərbaycanın rolu bir daha qeyd edilib. İclas zamanı Prezident İlham Əliyev Cənub Qaz Dəhlizi layihəsinin icrası üzrə əldə olunan nailiyyətləri yüksək qiymətləndirib. Builki iclasın iştirakçılarının sayında da artım olub. İclasa 17 ölkənin nümayəndəsi qatılıb. Serbiya, Macarıstan və San-Marino ilk dəfə iclasda təmsil olunub. Bu, Cənub Qaz Dəhlizinə marağın artdığının bariz nümunəsidir.

P.Şahbazov bildirib ki, Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan layihələrdən "Şahdəniz-2", Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi və TANAP-ın Türkiyə təbii qaz nəql edən hissəsi üzrə işlər yekunlaşıb. Azərbaycan qazını Avropaya çatdıracaq TAP boru kəmərinin inşasının 85 faizi tamamlanıb.




Avropa Komissiyasının büdcə və insan resursları üzrə komissarı G.Ottinger isə qeyd edib ki, Avropa İttifaqı ilə Azərbaycan arasındakı enerji əməkdaşlığının böyük perspektivləri var. Avropa İttifaqı Azərbaycanda enerji sektorunun daha da inkişafına dəstək verməyə hazırdır: "Biz hələ 2009-cu ildə Xəzərdə hasil olunan təbii qazın Avropaya nəqlinə dair ideyaları eşitməyə başladıq. İlkin olaraq "Nabucco" layihəsi irəli sürüldü. Bu layihə çərçivəsində nəzərdə tutulurdu ki, Xəzər qazı Avropa bazarına çatdırılsın. "Nabucco" opera kimi tanınır, Cənub Qaz Dəhlizi isə reallıqdır".

G.Ottinger bildirib ki, "Şahdəniz-2" yatağından hasil olunan qaz artıq boru kəməri ilə Türkiyəyə çatdırılır. Bu layihənin sonuncu hissəsi - TAP layihəsi üzrə işlər davam edir. Ümidvarıq ki, həmin işlər 2019-2020-ci illərdə tamamlanacaq: "Nazirlər səviyyəsində keçirilən bu toplantı çox mühüm tədbirə çevrilib. İtaliyadan olan nümayəndələr də TAP layihəsinin önəminə toxundular. Azərbaycan qazının İtaliyaya çatdırılması istiqamətində işlər gedir. Avropa üçün enerji təhlükəsizliyi çox mühüm məsələdir. Qarşıdakı 10 ildə isə qitədə təbii qazın önəmi daha da artacaq. Bizim üçün marşrutların və mənbələrin şaxələndirilməsi önəmlidir. Bu xüsusda Xəzər qazı, Azərbaycan qazı bizim üçün yeni mənbə, yeni marşrut deməkdir".

Avrokomissar vurğulayıb ki, Azərbaycan və SOCAR hazırda Avropa İttifaqının strateji enerji tərəfdaşıdır. Bu gün Cənub Qaz Dəhlizi tamamlandıqdan sonra növbəti ünvanlara genişləndirilməsi müzakirə olunur. Ümumi məqsəd isə növbəti 10 ildə Avropa istiqamətinə gedən qazın həcmi ən azı iki dəfə artırılsın, ildə 20 milyard kubmetr, hətta 25 milyard kubmetrə çatdırılsın.

"Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsindəki əməkdaşlığın çox geniş üfüqləri var. Bunlar arasında hasil edilən yanacaq, bərpaolunan enerji mənbələri, həmçinin elektrik şəbəkələrinin müasirləşdirilməsi kimi məqamlar var. Nəqliyyat sahəsində də bizim əməkdaşlığımız genişlənə bilər. Avropa İttifaqı Azərbaycanın öz iqtisadiyyatını daha da şaxələndirməsinə töhfə vermək, enerji və bərpaolunan enerji sahəsində də əməkdaşlığı genişləndirmək əzmindədir", - deyə o əlavə edib.

Xatırladaq ki, Məşvərət Şurası çərçivəsində nazirlərin ilk toplantısı 2015-ci il fevralın 12-də, ikinci toplantı 2016-cı il fevralın 29-da, üçüncü toplantı 2017-ci il fevralın 23-də, dördüncü toplantı isə ötən il fevralın 15-də keçirilib.

**AZƏRTAC**

# Azərbaycan daxili işlər nazirinin başçılıq etdiyi nümayəndə heyəti Türkiyədə səfərdədir

**Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubovun başçılıq etdiyi nümayəndə heyəti Budapeşt Prosesinin VI nazirlər konfransında iştirak etmək üçün fevralın 19-da Türkiyə Respublikasına səfər edib.**



Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, həmin gün Azərbaycan və Türkiyə daxili işlər nazirlərinin görüşü olub.

Budapeşt Prosesinin VI nazirlər konfransında iştirak etmək barədə dəvətini qəbul etdiyinə görə Ramil Usubova minnətdarlığını bildirən və ötən ilin sonlarında Azərbaycana ilk rəsmi səfərini xatırladan Süleyman Soylu dost və qardaş ölkələrimizin qlobal təhdidlərə, o cümlədən mütəşəkkil cinayətkarlığın bütün təzahürlərinə, xüsusən terrorizmə qarşı hər zaman vahid mövqedən çıxış etdiyini vurğulayıb. O, regionda fəaliyyət göstərən terror təşkilatlarının əsas hədəfinin Türkiyə olduğunu deyərək Azərbaycanın belə qruplaşmalara qarşı sərt və qətiyyətli mövqeyindən, atdığı konkret addımlardan məmnunluğunu ifadə edib. Türkiyəli nazir, həmçinin əməkdaşlığın dərinləşdirilməsi, aidiyyəti dövlət qurumları arasında təcrübə və məlumat mübadiləsinin genişləndirilməsi istiqamətində birgə səylərin bundan sonra da davam etdiriləcəyini bildirib.

Mötəbər beynəlxalq konfransa dəvət etdiyinə, göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirən nazir R.Usubov ikitərəfli münasibətlərin bütün istiqamətlərdə uğurla inkişaf etdiyini, əməkdaşlığın dərinləşməsinə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın əsl qardaşlıq və dostluq əlaqələrinin böyük töhfə verdiyini məmnunluqla qeyd edib.

Əməkdaşlığın geniş potensiala malik olduğunu, kadr hazırlığı və hərbi sahədə bir sıra sənədlərin imzalandığını, ikitərəfli formatda çoxsaylı görüşlərin keçirildiyini razılıqla diqqətə çatdıran nazir Ramil Usubov transmilli mütəşəkkil cinayətkarlıqla mübarizədə iki ölkənin hüquq mühafizə orqanları arasında məlumat və təcrübə mübadiləsinin daha da gücləndirilməsinin zəruriliyini vurğulayıb.

Dostluq və mehribanlıq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə olunub.

Fevralın 20-də İstanbul şəhərində Budapeşt Prosesinin VI nazirlər konfransı öz işinə başlayıb. Əvvəlcə Birləşmiş Millətlər Təşkilatının baş katibi Antoni Quterreşin tədbir iştirakçılarına videomüraciəti səsləndirilib.

Sonra Budapeşt Prosesinin sədri - Türkiyə Respublikasının daxili işlər naziri Süleyman Soylu, Prosesin həmsədri - Macarıstanın xarici işlər naziri Peter Siyarton, miqrasiya, daxili işlər və vətəndaşlıq məsələləri üzrə Avropa komissarı Dimitris Avramopolous, Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəzin baş direktoru Maykl Şpindeleqqer və digər rəsmi şəxslər çıxış ediblər.

Tədbirdə Azərbaycan Respublikasının daxili işlər naziri Ramil Usubov çıxış edərək qanunsuz miqrasiyanın kriminogen duruma mənfi təsiri, bu sahədə ölkəmizdə həyata keçirilən mühüm tədbirlər, habelə dünyada, xüsusən Yaxın Şərqdə miqrasiya böhranını doğuran səbəblər haqqında danışıb, onların aradan qaldırılması yolları barədə təkliflər səsləndirib.

Konfransın sonunda "Miqrasiya üzrə İpək Yolu Tərəfdaşlığına dair İstanbul Öhdəlikləri" və "Fəaliyyətə dair çağırış - beşillik plan" adlı sənədlər qəbul edilib.

**AZƏRTAC**

# Xəzər dənizi məsələləri üzrə Yüksək Səviyyəli İşçi Qrupunun birinci iclasının kommünikesi qəbul edilib

**Xəzər dənizi məsələləri üzrə Yüksək Səviyyəli İşçi Qrupunun birinci iclasının kommünikesi qəbul edilib. Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.**

Kommünikedə bildirilir ki, fevralın 19-20-də Bakıda Xəzər dənizi məsələləri üzrə Yüksək Səviyyəli İşçi Qrupunun birinci iclası keçirilib. Danışıqlarda Azərbaycan Respublikasının (rəhbəri - X.Xələfov), İran İslam Respublikasının (rəhbəri R. Ahari), Qazaxıstan Respublikasının (rəhbəri Z.Amanjolova), Rusiya Federasiyasının (rəhbəri İ.Bratçikov) və Türkmənistanın (rəhbəri M.Atacanov) nümayəndə heyətləri iştirak ediblər.

Tərəflər Xəzər dənizi məsələləri üzrə Yüksək Səviyyəli İşçi Qrupu üçün prosedur qaydalarını qəbul ediblər. Beşinci Xəzər Sammitinin nəticələrinə dair əldə edilmiş razılaşmaların həyata keçirilməsi üzrə fikir mübadiləsi aparılıb, Xəzər dənizində əməkdaşlığın müxtəlif aspektləri nəzərdən keçirilib, eləcə də imzalanmış sazişlər üzrə dövlətdaxili prosedurаların yerinə yetirilməsi, o cümlədən Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın ratifikasiya prosesi barədə məlumat verilib. Xəzər dənizində düz çıxış xətlərinin müəyyən edilməsinin metodikası üzrə Saziş layihəsinin müddəaları müzakirə olunub. Layihənin bir sıra müddəaları razılaşdırılıb. Bu sənədin müzakirəsi davam etdiriləcək.

Nümayəndə heyətləri danışıqların nəticələrini müsbət qiymətləndiriblər və ilk görüşün yüksək səviyyədə təşkil edilməsi üçün Azərbaycan Respublikasına dərin minnətdarlıqlarını bildiriblər.

Xəzər dənizi məsələləri üzrə Yüksək Səviyyəli İşçi Qrupunun növbəti iclası bu ilin aprelində Qazaxıstanda keçiriləcək.

**AZƏRTAC**

# 31-ci Beynəlxalq İnformatika Olimpiadasının yerli və beynəlxalq təşkilat komitələrinin birgə iclası keçirilib

**Fevralın 20-də ADA Universitetində məktəblilərin 31-ci Beynəlxalq İnformatika Olimpiadasının (IOI 2019) yerli və beynəlxalq təşkilat komitələrinin birgə iclası keçirilib.**



AZƏRTAC xəbər verir ki, iclasda bu il avqustun 4-dən 11-dək Bakıda keçiriləcək olimpiadaya hazırlıq prosesi, təşkilat komitələrinin və tərəfdaş qurumların fəaliyyəti müzakirə olunub.

ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev məktəblilər arasında keçiriləcək 31-ci beynəlxalq olimpiadaya Azərbaycanın ev sahibliyi edəcəyini yüksək dəyərləndirib. Universitetin tədris proqramı və fəaliyyət istiqamətləri barədə məlumat verən rektor bu ali məktəbdə informasiya texnologiyaları və mühəndislik fakültəsinin olduğunu diqqətə çatdırıb.

Beynəlxalq İnformatika Olimpiadasının ilk dəfə 1989-cu ildə Bolqarıstanda keçirildiyini deyən təhsil nazirinin müavini Firudin Qurbanov bildirib ki, Azərbaycan bu bilik yarışına 1994-cü ildən qoşulub. Respublikamız bu beynəlxalq tədbirdə 24 dəfə təmsil olunub. Ümumilikdə 55 azərbaycanlı məktəbli bu olimpiadada iştirak edib. Şagirdlərimiz Beynəlxalq İnformatika Olimpiadasından bu günədək biri gümüş, dördü bürünc olmaqla beş medal qazanıblar.

Azərbaycanın ilk dəfə 2019-cu ildə bu nüfuzlu elm yarışına ev sahibliyi edəcəyini deyən F.Qurbanov bu əlamətdar hadisəni yüksək dəyərləndirib. Qeyd edilib ki, 31-ci Beynəlxalq İnformatika Olimpiadasının Bakıda keçirilməsi haqqında qərar Yaponiyanın Tsukuba şəhərində məktəblilərin IOI 2018-in bağlanış mərasimində elan edilib və olimpiadanın bayrağı Azərbaycanın nümayəndə heyətinə təqdim olunub.

Diqqətə çatdırılıb ki, beynəlxalq tədbirin yüksək səviyyədə təşkil olunması üçün Təhsil Nazirliyi tərəfindən təşkilat komitəsi yaradılıb. Olimpiadaya bu il 90-a yaxın ölkədən təxminən 500-dən çox şagird və müəllimin qatılacağı gözlənilir.

Nazir müavini builki yarışmada azərbaycanlı məktəblilərin uğurlu nəticələr göstərəcəyinə əminliyini bildirib.

Müasir dünyada texnologiyaların inkişafının gələcək üçün vacibliyini qeyd edən nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini Elmir Vəlizadə ölkə başçısı tərəfindən İKT-nin inkişafına göstərilən diqqət və qayğıdan söz açıb. Qeyd edib ki, Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindən biri də İKT ilə bağlı yeniliklərin ölkəmizə gətirilməsdir. Bu mühüm tədbirə ölkəmizin ev sahibliyi etməsi və hazırlıq prosesinin yüksək səviyyədə təşkili bunun bariz nümunəsidir.

Beynəlxalq İnformatika Olimpiadasının prezidenti Qreq Li fevralın 17-dən 21-dək Bakıda IOI 2019-un qış iclasının keçirildiyini söyləyib. Nəzərə çatdırıb ki, üçgünlük səfər çərçivəsində olimpiadanın beynəlxalq təşkilat komitəsinin üzvləri ötən ilin sentyabrından ölkəmizdə başlanan hazırlıq prosesi ilə tanış olub, yarışın keçiriləcəyi məkanları və texniki imkanları təftiş ediblər. Olimpiadaya hazırlıq prosesinin yüksək səviyyədə təşkil olunduğunu deyən Qreq Li Azərbaycanın bu beynəlxalq tədbirə ciddi hazırlaşdığını deyib.

ADA Universitetinin informasiya texnologiyaları və mühəndislik fakültəsinin dekanı Araz Yusubov Beynəlxalq İnformatika Olimpiadasına hazırlıq prosesi və tərəfdaş qurumların fəaliyyəti barədə məlumat verib. Bildirib ki, olimpiadanın əsas yarışı Milli Gimnastika Arenasında, digər tədbirlər isə Heydər Əliyev Mərkəzi, Bakı Konqres Mərkəzi və "Bulvar Hotel"də keçiriləcək.

Xatırladılıb ki, IOI 2018-in bağlanış mərasimində təşkilatçılar tərəfindən Beynəlxalq İnformatika Olimpiadasının bayrağı ölkəmizin təhsil nazirinin müavini Firudin Qurbanova təqdim olunub.

Sonra beynəlxalq və yerli təşkilat komitəsinin üzvləri iştirakçılara təqdim olunub. Qonaqlar təmsil etdikləri qurum və təşkilat tərəfindən olimpiadaya hazırlıqla bağlı görülən işlər barədə məlumat veriblər.

**AZƏRTAC**

# Bakıda "Şekspir xalçalarda" müsabiqəsinə yekun vurulub

Fevralın 20-də Azərbaycan Xalça Muzeyində böyük ingilis dramaturqu Uilyam Şekspirin anadan olmasının 450 illiyinə həsr olunmuş "Şekspir xalçalarda" müsabiqəsinə yekun vurulub.



AZƏRTAC xəbər verir ki, tədbiri Xalça Muzeyinin direktoru Şirin Məlikova açıb. O bildirib ki, "Şekspir xalçalarda" müsabiqəsi Azərbaycan Mədəniyyət Nazirliyinin, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının və "British Council" təşkilatının Azərbaycandakı nümayəndəliyinin dəstəyi ilə 2016-cı ildə elan edilib. Münsiflər heyətinin qərarı ilə hər biri ayrıca nominasiyada fərqlənən üç xalça seçilib.

Mədəniyyət naziri Əbülfəs Qarayev müsabiqənin təşkilinə və keçirilməsinə dəstək göstərdiklərinə görə Böyük Britaniya səfirliyinə və "British Council" nümayəndəliyinə təşəkkür edərək deyib: "Belə tədbirlər Azərbaycan ilə Böyük Britaniyanı mədəniyyət və incəsənət sahəsində daha da yaxınlaşdırır. Hesab edirəm ki, biz əməkdaşlığımızı möhkəmləndirməli və inkişaf etdirməliyik. Bu yaxınlarda "British Council" ilə əməkdaşlıq haqqında müqavilə imzalamışıq. Bizi çoxlu maraqlı layihə gözləyir".

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson və "British Council" təşkilatının Azərbaycandakı nümayəndəliyinin direktoru Samr Şah xalçaçılıq sənətinin bütün dünyada qorunub saxlanılması və təbliği işinə töhfələrinə görə Azərbaycan Mədəniyyət Nazirliyinə və Xalça Muzeyinin rəhbərliyinə təşəkkür ediblər. Onlar müsabiqənin qaliblərini təbrik edərək, onlara daha böyük nailiyyətlər arzu ediblər.

Sonra Baronessa Emma Nikolson, Böyük Britaniyanın ölkəmizdəki səfiri Kerol Krofts və "British Council" nümayəndəliyinin direktoru Samr Şah müsabiqənin qalibləri Telman Şıxıyevin (mütləq qalib), Sürəyya Muğanlının (ümumi kateqoriyada qalib) və Aydan Sadıqbəylinin (münsiflər heyətinin xüsusi mükafatı) işlərinə tamaşa ediblər. Bu xalçalar bir ay ərzində muzeydə nümayiş etdiriləndən sonra Britaniya muzeylərinə veriləcək. Qonaqlar görmə qabiliyyəti zəif olanlar üçün bu ayın əvvəlində muzeydə açılan ekspozisiya ilə də tanış olublar.

Sonda Xalça Muzeyinin direktoru Şirin Məlikova Baronessa Emma Nikolsona xatirə hədiyyəsi təqdim edib.

**AZƏRTAC**

# DİL XALQIN MİLLİ MƏNƏVİ SƏRVƏTİDİR

**Dil xalqın milli mənəvi varlığını qoruyub gələcək nəsillərə çatdıran ən mühüm ünsiyyət vasitəsidir. Dil xalqın varlığının təzahürü, onun milli sərvəti, qan yaddaşıdır. Xalqın taleyi, onun mənliyi, mənəviyyatı və mədəniyyəti olan dil cəmiyyətin təşəkkülü və inkişafı ilə birgə yaranır, tərəqqi edir. Millətin dilinin dövlət statusuna yüksəlməsi isə tarixi hadisə, milli dövlətçilik tarixinin qızıl səhifəsidir. Ana dili hər bir xalqın, hər bir millətin milli mənəvi sərvəti, mənəviyyatının güzgüsüdür. Bu məqam millətin millət olaraq təsdiqidir.**

Bu gün Azərbaycan dili dövlət statuslu dil kimi dövlətçiliyin əsas atributuna çevrilmiş, onun qorunması və inkişafı istiqamətində mühüm işlər aparılır. Çünki dilin dövlət dili statusuna yüksəlməsi millətin öz taleyinə sahibliyinin, dövləti qurmaq və qorumaq qüdrətinin, eyni zamanda dilinin zənginliyinin sübutudur. Bu mənada, dilin dövlət dili statusu qazanması həqiqətən qürur gətirən tarixi hadisədir. Dillərin qorunması məqsədilə hər il keçirilən Beynəlxalq Ana dili günü hər kəsə öz doğma dilinin varlığını hiss etmək, onunla qürur duymaq, onu qorumaq, inkişaf etdirmək hüququ olduğunu bir daha xatırladır. Bu baxımdan hər millətin inkişafında ən mühüm varlıq və yaşanma amili olan dilin müstəsna rolu vardır. Son illərdə xalqımızın ana dili olan Azərbaycan dilinin dövlətçiliyin əsas atributlarından biri kimi inkişafı dil quruculuğu siyasəti ilə bağlıdır. Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsi isə həmin dövr üçün əhəmiyyətli hadisə idi. Hələ sovet dövründə ana dilimizin qorunması və inkişaf etdirilməsi, Azərbaycan dilinin dövlət dili statusunun təmin edilməsi ilə bağlı ümummilli lider Heydər Əliyev tarixi faktları gerçəkləşdirmişdi. Məhz ulu öndərin qayğı və diqqəti nəticəsində Azərbaycan dili dövlət dili kimi rəsmiləşmişdi. Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsi və təsbit olunması həmin dövr üçün milli, tarixi əhəmiyyətli hadisə idi. Müstəqillik ərəfəsi və onun ilk illərində dilin adının dəyişdirilməsi, onunla bağlı ənənələrin nəzərə alınmaması indi də təəssüf doğurur. 1995-ci ildə qəbul edilən Konstitusiya ilə dövlət dilinin adı bərpa olundu. Bundan sonra dövlət səviyyəsində Ana dilinin inkişafı və qorunması istiqamətində əhəmiyyətli qərarlar qəbul edildi. Ümummilli lider Heydər Əliyev müstəqillik illərində 18 iyun 2001-ci ildə "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında", 9 avqust 2001-ci il "Azərbaycan əlifbası və Azərbaycan dili gününün qeyd edilməsi haqqında" fərmanı dilimizin tətbiqi işinə stimul vermişdir. Prezident Heydər Əliyevin 2001-ci il iyunun 18-də "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərmanı ilə 2001-ci il avqustun 1-dən Azərbaycanda bütün media və kütləvi nəşrlərin latın qrafikalı əlifbaya keçməsi rəsmiləşdirildi, latın qrafikalı Azərbaycan əlifbasına keçid başa çatdırıldı.

2002-ci il 30 sentyabr tarixdə "Azərbaycan Respublikasında Dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi milli mənəvi dəyərlərimizə, ədəbi-mədəni irsimizə ehtiramı rəsmiləşdirmişdir. Azərbaycan dilinin dövlət dili kimi tətbiqi və inkişaf etdirilməsi istiqamətində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2004-cü il yanvarın 12-də "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" və 2004-cü il yanvarın 14-də "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında", eləcə də 17 iyul 2018-ci il "Əcnəbilər üçün Azərbaycan dilinin elektron platforması" ilə bağlı sərəncamı da dilimizin inkişafına böyük qayğının təzahürüdür. Nəhayət, bu günlərdə dövlət dilinin qorunması və işləkliyinin təmin edilməsi məsələsinin vacibliyini nəzərə alan cənab İlham Əliyev "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" fərmanda cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni həyatının bütün sahələrində Azərbaycan dilinin daha geniş işlədilməsinin təmin edilməsi məqsədilə müxtəlif konkret tədbirlərin keçirilməsi, o cümlədən Dövlət Dil Komissiyasının yanında Monitorinq Mərkəzinin yaradılması haqqında qərar verilir. Azərbaycan dövlətinin apardığı ardıcıl dil siyasətinin əsasında dilimizin qorunması və inkişafı üçün dövlət dilinin statusunu və işləkliyini bütün sahələrdə təmin etmək nəzərdə tutulur.

23 may 2012-ci ildə "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı Azərbaycan dilinin tətbiqi və inkişafı üçün mühüm bir mərhələnin başlanğıcını qoydu. Bu sənəddə Azərbaycan dilinin tarixi əsasları barədə mükəmməl təsəvvür yaradılmış və inkişaf problemləri haqqında sistemli şəkildə bəhs edilmişdir. Xüsusən, Azərbaycan dilinin mənşəyi ilə bağlı davam edən yanlış konsepsiyaya son qoyulması, tarixi faktlara əsaslanaraq Azərbaycan dilinin dövlət dili kimi tətbiqi, inkişaf etdirilməsi üçün həm inzibati, hüquqi-siyasi, həm də elmi-nəzəri istiqamətlər müəyyənləşdirilməsinin zəruriliyi qeyd edilir.

Azərbaycan dilinin bütün ölkə miqyasında - mədəniyyət, elm, iqtisadiyyat, hərb, səhiyyə, siyasət, tədris və təlim sahəsində tətbiq olunması zəruri və əməli cəhətdən əsaslandırılmış və Azərbaycan dilçiliyi ilə bağlı görüləcək işlərin əsas konturları verilmişdi. Dövlət dilini qorumaq hər bir dövlətin mühüm siyasi-ideoloji vəzifələrindən, əsas milli maraqlarından biridir. Azərbaycan dilinin tarixi hüquqlarının qorunması, onun mənəvi-siyasi nüfuzunu həm ölkə daxilində, həm də ölkə xaricində yüksəltmək sərəncamda xüsusi qeyd edilir.

Ünsiyyət vasitəsi olan dilin bugünkü inkişaf səviyyəsinə rekonstruktiv yanaşma təsdiqləyir ki, dilin inkişafı cəmiyyətin inkişaf səviyyəsi, ictimai-siyasi hadisələrlə, qlobal dəyişikliklərlə əlaqədardır. Qloballaşma dünyada informasiya verən, onu qəbul edən mexanizmdir, yəni dil dövlətçiliklə tənzim olunduqda perspektivləri artır, işlənmə əhatəsi genişlənir, informasiya intensivliyi yüksəlir. Müstəqil dövlətçilik mərhələsi dilin inkişafının ən etibarlı bazasıdır. Dövlət dili dil siyasətinin əsas anlayışıdır və milli dilin dövlət dili səviyyəsinə yüksəlməsi ölkəmizin apardığı dil siyasətinin real nəticəsidir. Dil quruculuğu dilə şüurlu və məqsədyönlü təsirdir, dil quruculuğu, dil siyasətinin tərkib hissəsidir. Hazırkı dövrdə cəmiyyətin bir çox fəaliyyət sahələrinə nüfuz edən qloballaşmanın dilə birbaşa təsir dairəsi onun leksik səviyyəsi ilə bağlıdır. Beynəlxalq əlaqələrin inkişafı, dünya elminə inteqrasiya terminologiyanın zənginləşməsinə səbəb olur. Müxtəlif elm sahələri üzrə kəşflər, ixtiralar və yeniliklər termin və anlayışlarda ifadə olunur. Tarixi-mədəni əlaqələr və dövlətlərarası münasibətlər, elmi-texniki tərəqqi, elmi bilik sahələrinin inkişafı Azərbaycan dili leksikasında terminlərin xüsusi çəkisinin artmasına səbəb olur. Dünya sivilizasiyasının, ictimai həyatın inkişafının əksi olan terminlərin yaranması ayrı-ayrı dillərin fonetik, leksik, qrammatik xüsusiyyətlərini də özündə birləşdirir. Bu nəzərə alınaraq sərəncamda Azərbaycan dilində termin yaradıcılığı sahəsində işlərin tənzimlənməsi və koordinasiya edilməsi üçün Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Terminologiya Komissiyasının yaradılması qərara alınmışdır.

Müstəqillik illərində Azərbaycan dilinin lüğət tərkibində köklü dəyişikliklər baş verir. İqtisadi əlaqələr genişləndikcə, ictimai-siyasi münasibətlər, eləcə də elmi-texniki tərəqqi dilin zənginləşməsini zəruri edir. Azərbaycan dilinin dünya dilləri ilə birbaşa əlaqələri nəticəsində, əgər əvvəllər Azərbaycan dilinə terminlər əsasən, rus dilindən və rus dili vasitəsilə alınırdısa, indi alınmalar vasitəçi dil olmadan dilimizə birbaşa keçir. Dildə zərurətdən işlənən sözlərin dilin lüğət tərkibinə keçərək dili zənginləşdirməsi vacibdir. Bu proses, yeni Azərbaycan dilinin başqa dillərlə birbaşa əlaqəsi lüğətlərin tərtibinə də təsir edir. Əgər əvvəllər əsasən, rusca-azərbaycanca, azərbaycanca-rusca lüğətlərin tərtibi prioritet sahə hesab olunurdusa, indi azərbaycanca, ingiliscə, rusca, türkcə, almanca və s. dillərdə lüğətlərin tərtibi vacib hesab edilir. Hazırda Azərbaycan dilinin dövlət dili statusu alması, yeni təhsil sisteminin yaradılması prosesində Terminologiya Komissiyasının vəzifələri daha da artmışdır. Ona görə ki, elmi-texniki tərəqqi, ictimai-siyasi həyatın inkişafı terminoloji sistemlərin fasiləsiz olaraq dəyişməsinə və inkişafına təsir göstərir. Azərbaycan dilində müxtəlif elm sahələrinə aid terminoloji baza dilin öz daxili imkanlarından əlavə rus və Avropa dillərindən alınmış beynəlxalq terminlər əsasında formalaşmışdır. Yaranan terminlər dilin qrammatik qayda-qanunlarına uyğun olmaqla bərabər anlayışı da məntiqi cəhətdən düzgün təyin etməlidir. Bu məsələnin həlli həm vahid beynəlxalq terminologiyanın yaradılmasına şərait yaradır, həm də elmlərin inkişafına təkan verir. Elmlərin inteqrasiyası, elmi biliklərin müxtəlif istiqamətdə inkişafı, elmi təcrübələrin, informasiyaların asanlıqla yayılması, başa düşülməsi üçün vahid terminoloji bazaya üstünlük verilməlidir. Terminoloji fondun yaradılması üçün müxtəlif sahələrə aid terminoloji lüğətlərin tərtibi vacibdir. Terminologiyanın təkmilləşdirilməsi yollarından ən səmərəli yol müxtəlif sahələr üzrə çoxdilli, izahlı terminoloji lüğətlərin tərtib olunmasıdır. Bu nəzərə alınaraq müstəqillik illərində elmin-texnikanın müxtəlif sahələri ilə bağlı Terminologiya Komissiyasının qərarı ilə 130-a qədər terminoloji lüğət nəşr edilmişdir.

2018-ci ildə Terminologiya Komissiyasında "Rusca-azərbaycanca dəmiryol nəqliyyatı terminləri lüğəti", "Hərbi-tibbi terminlərin izahlı lüğəti", "Azərbaycanca-ingiliscə-rusca izahlı kommunikasiya terminləri lüğət"i, "İzahlı dilçilik terminləri lüğəti", "İzahlı yeni terminlər lüğəti" müzakirə olunmuş və TK qərarı ilə nəşr olunmuşdur.

Kənan Yusifzadənin tərtib etdiyi "Hərbi-tibbi terminlərin izahlı lüğəti"ndə (Bakı, "Apostrof-A", 2018, 1094 səh; redaktor: Ə.Əmiraslanov, rəyçilər: B.Ağayev, S.Sadıqova) 26500 terminin tərifinə, şərhinə geniş yer verilmişdir. Tibb sahəsində yeni istiqamət və sahələrin inkişafı, tibb elminin müxtəlif sahələri ilə bağlı araşdırmaların aparılması tibb terminologiyasının inkişafına təsir göstərir. Tibbin bir elm kimi müxtəlif istiqamətlərdə inkişafı, başqa elm sahələri ilə inteqrasiyası mövcud terminoloji sistemdə əsaslı dəyişmələrə səbəb olmuşdur. Hazırda bu proses davam etməkdədir. Bu terminlərin ifadə olunmasında dilin daxili imkanları əsasında termin yaradıcılığı ilə paralel terminalma da sürətli forma almışdır. Beynəlxalq əlaqələrin inkişafı, həm ölkəmizdə, həm də xaricdə tibbi elmi-praktik konfransların, yığıncaqların və s. keçirilməsinə geniş imkanlar yaratmışdır. Tibb elminin sürətli inkişafı, yeni sahələrinin yaranması bu istiqamətdə yaranan yeni terminlərin toplanmasını, onların sistemləşdirilməsini və izahlı tibb terminləri lüğətinin tərtibini zəruri etmişdir.

Kazım Şərifovun tərtib etdiyi "Rusca-Azərbaycanca dəmiryol nəqliyyatı terminləri lüğəti"də (Bakı, "Şərq-qərb", ASC, 2018, 1248 səh; baş redaktor: akademik A.A.Əlizadə, redaktorlar: akademik R.M.Əliquliyev, professor S.A.Sadıqova) nəşr edilmişdir. Lüğətə vaqon, lokomotiv, siqnalizasiya və rabitə, yol, daşıma və dəmiryol nəqliyyatının başqa təsərrüfatları ilə bağlı dəmiryolçuların və dəmiryol nəqliyyatı istifadəçilərinin ən çox işlətdikləri 58000-dən çox termin daxil edilmişdir. Lüğət son illərdə nəşr olunmuş dəmiryol nəqliyyatına aid elmi-texniki ədəbiyyat və digər mənbələrdən termin və terminoloji söz birləşmələrinin sistemi əsasında tərtib edilmişdir.

Nəriman Seyidəliyevin tərtib etdiyi "Dini terminlər lüğəti"ndə (Bakı, "Elm və təhsil", 2018, 132 səh.) 2700 dini terminin izahı verilmişdir. Son illər ana dilimizdə dinə dair çoxsaylı kitablar nəşr edilmiş və edilməkdədir. Lüğət tərtib edilərkən Azərbaycan, rus və başqa dillərdə nəşr olunmuş müxtəlif tipli sözlüklərdən və dinə dair kitablardan istifadə olunmuşdur.

Terminologiya Komissiyasının qərarı ilə nəşr edilən "İzahlı yeni terminlər lüğəti"ndə (tərtibçilər: S.A.Sadıqova, S.Quliyeva, Ş.Həsənli-Qəribova) Azərbaycan dilində işlənən 2700 yeni yaranmış termin toplanmış və onların izahı verilmişdir. Müasir dövrdə cəmiyyətin inkişafı, elmi-texniki tərəqqi, ictimai-siyasi dəyişikliklərlə bağlı yeni yaranan terminlər dilin leksik sistemini zənginləşdirir. Yeni terminlərin yaranması, termin yaradıcılığı prosesi terminoloji leksikanın inkişafını sürətləndirir. Yeni terminlər isə ən çox tədqiqat işi aparılan zaman, ictimai-siyasi həyatda baş verən dəyişikliklər, həmçinin elmi-texniki ədəbiyyatların tərcüməsi prosesində yaranır.

Tədqiqatçılar göstərirlər ki, "Dünyada 6000-dən artıq dil olsa da, inkişaf etmiş elmi terminologiya yalnız 60 dildə mövcuddur və 300-ə qədər elm sahəsini əhatə edir. Azərbaycan dili də belə inkişaf etmiş dillərdəndir. Hər bir sahədə terminoloji fəallıq yeni anlayış və terminlərin yaradılmasından, sahənin məhsuldarlığından, bu prosesdə iştirak edən amillərdən və beynəlxalq əməkdaşlıqda qazanılan uğurlardan asılıdır. Ona görə də terminologiyada baş verən dəyişiklikləri diqqətlə izləmək və terminologiyanın inkişafını həmişə düzgün istiqamətləndirmək zəruridir. Xüsusilə, dilin saflığı, təmizliyi, elmi dilimizin inkişafı istiqamətində fəaliyyət göstərən Terminologiya Komissiyasının funksiyaları daha da genişlənmiş, respublika daxilində termin yaradıcılığı prosesinin müəyyənləşdirilməsi vacib bir problem kimi önə çəkilmişdir. Hazırda Komissiyada müxtəlif sahələrlə bağlı terminoloji lüğətlər hazırlanır və Komissiyanın qərarı ilə çapa təqdim olunur. Əsasnamədə qeyd edildiyi kimi, respublikada nəşr edilən bütün terminoloji lüğətlər Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Terminologiya Komissiyasında qeydiyyatdan keçməli və onun qərarı ilə nəşr edilməlidir. Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Terminologiya Komissiyasının qərarı olmadan terminoloji lüğətlərin nəşri qəti qadağan edilir.

Son zamanlar ölkəmizin iqtisadi-siyasi həyatında, ictimai fikrində baş verən proseslər, yeniliklər dilin lüğət tərkibində sürətli dəyişmələrə səbəb olmuşdur. Əvvəllər ölkəmizdə terminoloji mühiti dövlət və ictimaiyyət tərəfindən nəzarətdə saxlamaq mümkün idi. Çünki həmin vaxtlar xarici dillərdən tərcümə olunan materialların həcmi böyük deyildi, tərcümə prosesinə ciddi nəzarət olunurdu və ölkə daxilində çap materialları, xüsusilə dərslik və dərs vəsaitləri, müxtəlif səviyyəli ekspertiza mərhələlərindən keçirdi. Digər tərəfdən, TV-lərdə, radiolarda və digər kütləvi informasiya vasitələrində verilən materiallar digər tələblərlə yanaşı, terminoloji tələblərə cavab verməli idi. Ancaq son zamanlar ölkəmizdə xarici KİV-lərin fəaliyyətinin genişlənməsi, internetin cəmiyyətin bütün həyatına nüfuz etməsi, insanların müxtəlif bilik sahələrinə aid məlumatları xarici dillərdən birbaşa qəbul etməsinin sürətlənməsi nəticəsində



ölkədə terminoloji mühiti nəzarətdə saxlamaq çətinləşmişdir. Belə şəraitdə dilin terminoloji bazasının yad təsirlərdən qorunması, inkişaf etdirilməsi, bütün dünyaya yayılmış azərbaycanlıların müraciət etmək imkanı olan onlayn resurs bazasının yaradılması və bütövlükdə yeni terminlərin yaradılması prosesində virtual məkanın imkanlarından istifadə edilməsi, o cümlədən interaktiv forumlar vasitəsi ilə bu prosesə geniş ictimaiyyətin cəlb edilməsi mühüm vəzifələrdən hesab edilir. Müasir şəraitdə Terminologiya Komissiyasının fəaliyyəti məhz belə tələblər nəzərə alınmaqla qurulur. Heç şübhəsiz, Azərbaycan mədəniyyəti, elmi inkişaf etdikcə, Azərbaycan dövləti möhkəmləndikcə Azərbaycan dili daha da zənginləşir, daha müasir, daha qlobal, analitik düşüncənin dilinə çevrilir. Elmin, texnikanın, mədəniyyətin inkişafı Azərbaycan dilinin tətbiqi işinin təkmilləşməsinə öz müsbət təsirini göstərir. Xüsusilə, elm sahələrinin inteqrasiyası, elmi biliklərin müxtəlif istiqamətlərdə inkişafı, xarici dövlətlərlə yaradılan ictimai-siyasi əlaqələrin güclənməsi terminoloji bazanın zənginləşməsinə təsir göstərir. Bu proses Azərbaycan dilində işlənən, o cümlədən yeni yaranan terminlərin toplanması, aprobasiyası və tətbiqinin sürətləndirilməsini, dilimizdəki elmi-texniki anlayışların vahid sistem əsasında təkmilləşdirilməsini tələb edir. Elm və texnikanın inkişafı ilə yanaşı, ictimai-siyasi həyatla bağlı dilimizə xeyli miqdarda terminlər daxil olmuşdur. Bu nəzərə alınaraq terminologiyada baş verən dəyişiklikləri diqqətlə izləmək və terminologiyanın inkişafını həmişə düzgün istiqamətləndirmək zəruridir. Lakin son dövrlərdə müasir Azərbaycan ədəbi dilinin tükənməz imkanlarından lazımınca və düzgün istifadə edilməməsi diqqəti çəkir. Ədəbi dilimizin özünəməxsus inkişaf qanunauyğunluqlarına xələl gətirə biləcək yad ünsürlərin üzə çıxarılması və qarşısının alınması istiqamətində mütəxəssislər çeviklik nümayiş etdirməlidirlər. Azərbaycan dilində elmi dilin inkişafı üçün dilimizdəki elmi-texniki anlayışların vahid sistem və prinsiplər əsasında qurulması vacibdir. Çünki dünya azərbaycanlılarının ümumi ünsiyyət vasitəsi, Azərbaycan Respublikasının dövlət dili olan Azərbaycan dilinin lokal tarixi və müasir nüfuzunun qorunub saxlanması milli-ictimai ehtiyac, mənəvi-mədəni borcumuzdur.

**Sayalı SADIQOVA,**
**AMEA RH yanında Terminologiya Komissiyasının sədr müavini, Nəsimi adına Dilçilik İnstitutunun Terminologiya şöbəsinin müdiri, professor.**

# Hərbi attaşelər Müdafiə Sənayesi Nazirliyinin müəssisələrini ziyarət ediblər



**Xarici ölkələrin Azərbaycana akkreditə olunmuş hərbi attaşeləri fevralın 20-də Müdafiə Sənayesi Nazirliyinin (MSN) müəssisələrini ziyarət ediblər.**

MSN-dən AZƏRTAC-a bildiriblər ki, nazirliyin "İqlim" elmi istehsalat müəssisəsini və elektron hesablayıcı maşınlar zavodunu ziyarət edən hərbi attaşelər hər iki müəssisə ilə yaxından tanış olub, istehsal prosesini izləyiblər.

Əvvəlcə nazirliyin elektron hesablayıcı maşınlar zavoduna gələn hərbi attaşelərə müəssisənin fəaliyyəti ilə bağlı ətraflı məlumat verilib.

Qonaqlar burada MSN-in müəssisələrində yaradılan və istehsal olunan hərbi təyinatlı məmulatların nümayiş etdirildiyi sərgiyə baxıblar. Nümayiş etdirilən hər bir məmulat böyük marağa səbəb olub. Hərbi attaşelər zavodda hazırda ixrac məhsulu kimi istehsal olunan hərbi təyinatlı məmulatların hazırlanma prosesini də izləyiblər.

Sonra hərbi attaşelər istehsal gücü yüksək olan, daha çox çeşiddə hərbi təyinatlı məhsul istehsal edən "İqlim" elmi istehsalat müəssisəsinə gəliblər. Müəssisə ilə yaxından tanış olan nümayəndələrə istehsalı reallaşmış və artıq seriyalı istehsalı həyata keçirilən atıcı silahlarla bağlı ətraflı məlumat verilib. Bildirilib ki, müəssisədə istehsal olunan atıcı silahlar beynəlxalq sərgilərdə nümayiş etdirilir və ixracı həyata keçirilir.

Tanışlıq məqsədilə təşkil olunan tədbirdə 21 ölkəni təmsil edən 32 nümayəndə iştirak edib.

Sonda hərbi attaşelər müəssisələrdə yaradılmış şəraitə görə məmnunluqlarını ifadə edib, tədbirin təşkilinə görə nazirliyin rəhbərliyinə təşəkkürlərini bildiriblər.

Artıq ənənə xarakteri almış bu ziyarət Azərbaycan Respublikası Müdafiə Nazirliyinin dəstəyi ilə həyata keçirilir. Bu qəbildən olan tədbirlər hərbi-texniki sahədə əməkdaşlığın inkişafında və Azərbaycanın istehsalı olan hərbi təyinatlı məmulatların ixracının artırılmasında xüsusi rol oynayır.

**AZƏRTAC**

# Birləşmiş Krallığın Kosmik Agentliyi ilə "Azərkosmos"un əməkdaşlığının perspektivləri müzakirə olunub

**Fevralın 20-də Böyük Britaniyanın Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson "Azərkosmos"un Əsas Yerüstü Peyk İdarəetmə Mərkəzində olub.**

"Azərkosmos" ASC-dən AZƏRTAC-a bildirilib ki, səfər çərçivəsində E.Nikolson "Azərkosmos"un rəhbərliyi ilə görüşüb. Görüş zamanı qonağa "Azərkosmos"un fəaliyyəti, idarəçiliyində olan peyklər və bu ilin fevral ayından kommersiya fəaliyyətinə başlayan "Azerspace-2" telekommunikasiya peyki barədə məlumat verilib.

E.Nikolson kosmik sahədə elmi-təcrübi tədqiqatların aparılması məqsədilə "Azərkosmos"un nəzdində yaradılan Tədqiqat və İnkişaf Mərkəzinin fəaliyyəti ilə tanış olub.

Görüşdə Azərbaycanda kosmik sahədə kadr potensialının inkişaf etdirilməsi, şirkətdə toplanmış təcrübənin tələbələrə ötürülməsi və yerli mütəxəssislərin hazırlanması istiqamətində görülən işlər qeyd olunub. "Azərkosmos"un kosmik sahə üzrə startap ekosistemində gördüyü işlər qonağın diqqətinə çatdırılıb. Birləşmiş Krallığın Kosmik Agentliyi və "Azərkosmos" arasında qurulan əməkdaşlığın perspektivləri müzakirə olunub. Peyk texnologiyaları sahəsində qlobal trendlər və telekommunikasiya sektorunun dəyişən dinamikası haqqında da fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

# Xocalı soyqırımının iyirmi yeddinci ildönümü ilə bağlı tədbirlər

**"Təhsil müəssisələrində Xocalı soyqırımının iyirmi yeddinci ildönümünün keçirilməsi barədə" Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müvafiq əmrilə təsdiqlənmiş Tədbirlər Planında ümumi təhsil müəssisələri və uşaq-gənclər inkişaf mərkəzlərində fevralın 26-sı ilk dərslər Xocalı soyqırımına həsr ediləcək.**

Həmçinin "Xocalıya gedən yol" mövzusunda mühazirə, toplantı, "Dəyirmi masa" və konfransların təşkili nəzərdə tutulur.

Bundan əlavə, "Xocalı faciəsi uşaq yaradıcılığında" mövzusunda bədii qiraət gecələri, məktəblilərin esse və inşa yazılarının təqdimatı, əl işlərindən ibarət sərgiləri təşkil olunacaq. "Xocalı harayı" mövzusunda ədəbi-bədii kompozisiyalar təşkil olunacaq, sənədli və bədii filmlər nümayiş ediləcək. Xocalı soyqırımından bəhs edən divar qəzetləri, bülleten, fotostendlər və guşələr hazırlanacaq.

Təhsil müəssisələrinin internet resurslarına Xocalı soyqırımını əks etdirən materiallar yerləşdiriləcək, keçirilən tədbirlər kütləvi informasiya vasitələri və televiziya kanallarında işıqlandırılacaq. Təhsil müəssisələrinin müəllim və şagird kollektivi soyqırım şahidləri ilə görüşəcək, "Ana fəryadı" abidəsini ziyarət edəcəklər.

Bu tədbirlərin keçirilməsi ölkəmizin müstəqilliyi uğrunda mübarizədə canlarını qurban vermiş vətən övladlarını yad etmək, böyüməkdə olan nəslə doğma Vətənə sevgi, məhəbbət hissləri aşılamaq, məktəblilər arasında milli vətənpərvərlik ruhunu yüksəltmək və Xocalı soyqırımı haqqında həqiqətləri çatdırmağa xidmət edir.

**Əli SADIQOV,**
**"Respublika".**

# Müvəqqəti məskunlaşma yerləri yararsız vəziyyətə düşən məcburi köçkünlər siyahıya alınıblar

**Fevralın 20-də Bakı şəhəri, Sabunçu rayonu, Zabrat qəsəbəsi ərazisində beş məcburi köçkün ailəsinin müvəqqəti məskunlaşdığı birmərtəbəli tikilidə yanğın baş verib.**

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, yanğın barədə məlumat alandan dərhal sonra Dövlət Komitəsinin məsul əməkdaşları hadisə yerində olublar. Müvəqqəti məskunlaşma yerləri yanğın nəticəsində yararsız vəziyyətə düşən məcburi köçkünlər siyahıya alınıblar.

Hazırda Fövqəladə Hallar Nazirliyinin əməkdaşları tərəfindən yanğının başvermə səbəbləri araşdırılır. Yanğının tikilidəki boş otaqlardan birində başlanması müəyyən şübhələrə əsas verir. Yalnız obyektiv araşdırmadan sonra Fövqəladə Hallar Nazirliyinin rəyi əsasında hadisəyə hüquqi qiymət veriləcək.

FHN-in məlumatına görə, ümumi sahəsi 1140 kvadratmetr olan, arakəsmələri taxta konstruksiyalardan ibarət tikilinin yanar konstruksiyaları 670 kvadratmetr sahədə yanıb. Tikilinin qalan hissəsi yanğından mühafizə olunub.

Dövlət Komitəsi yanğından zərər çəkən ailələrə Qaradağ rayonu ərazisində məcburi köçkünlər üçün salınmış "Ümid" qəsəbəsində yeni mənzillər təklif edəcək.

**AZƏRTAC**

# Dövlət Sərhəd Xidməti mətbuat mərkəzinin məlumatı

Son günlərdə dövlət sərhədinin etibarlı mühafizəsi, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində Dövlət Sərhəd Xidməti tərəfindən bir sıra uğurlu əməliyyatlarlar keçirilmiş, narkotik vasitələrin dövlət sərhədindən qeyri-qanuni gətirilməsi cəhdinin qarşısı alınmışdır. Belə ki, 7 fevral tarixində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Göytəpə" sərhəd dəstəsinin xidməti ərazisində həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində Yardımlı rayonunun ərazisində dövlət sərhədindən narkotik vasitələrin qeyri-qanuni gətirilməsi cəhdinin qarşısı alınarkən Masallı rayon sakini 1994-cü il təvəllüdlü Nəzirli Cavad Fikrət oğlu saxlanılmışdır. Saxlanılan şəxsin üzərinə baxış keçirilərkən 1 kq 720 qr "heroin", 2763 manat və 3 ədəd mobil telefon aşkar olunaraq götürülmüşdür. Həmin cinayətin digər iştirakçısı təqibdən yayınaraq meşə massivində gizlənməyə müvəffəq olmuşdur. Qeyd olunan şəxsin müəyyənləşdirilməsi istiqamətində əməliyyat-istintaq tədbirləri davam etdirilir.

18 fevral tarixində Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin Lənkəran rayonunun Vel kəndinin ərazisində xidmət aparan sahil nəzarət bölməsinin əməkdaşları tərəfindən sahildə kolluqların arasında gizlədilmiş halda 1 kq 85 qr "heroin" aşkarlanaraq götürülmüşdür.

Qeyd olunan faktlar üzrə müvafiq əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# AzMİU-da karyera sərgisi





**Fevralın 20-də Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) tələbələrin məşğulluğunu artırmaq məqsədi ilə ilk dəfə olaraq tələbə və məzunlar üçün karyera sərgisi təşkil olunub. Sərgidə nazirliklər, dövlət qurumları, komitə və təşkilatlar, müəssisələr, eləcə də universitetlə uğurlu əməkdaşlıq edən ölkənin qabaqcıl şirkətlərinin nümayəndələri iştirak ediblər.**

Tələbələrinin keyfiyyətli təhsil almalarını təmin etməklə yanaşı, onların ixtisasları üzrə uğurlu karyera qurmaları üçün də köməklik göstərən universitet rəhbərliyinin təşəbbüsü ilə 70-ə yaxın dövlət qurumu, özəl şirkətlər, müəssisələr tələbə və məzunlara müxtəlif vakansiyalar üzrə ümumilikdə 600-dən çox iş yerləri təklif edib.

Ölkənin aparıcı şirkətlərindən — Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti, SOCAR, Azərişıq, Bakı Metropoliteni QSC, Azərsu ASC, Zaferoğlu İnşaat MMC, Embawood MMC, Holcim, Mətanət-A şirkəti, Azərsun Holdinq, Kapital Bank, Bank of Baku, Beynəlxalq Bank, Metak şirkəti, Təmiz Şəhər ASC, Gilan Holding, Akkord, Azercell, eləcə də digər dövlət və özəl şirkətlərin vakant iş yerləri sərgiyə çıxarılıb.



Universitetin rektoru, professor Gülçöhrə Məmmədova karyera sərgisini açıq elan edərək sərginin əhəmiyyətindən danışılıb. Rektor bildirib ki, sərgi tələbə və məzunların karyera imkanlarını artırmaq, məşğulluqlarını inkişaf etdirmək, əmək bazarında fəaliyyət göstərən, ixtisaslarına uyğun şirkətlərlə əlaqə yaratmaq və real iş imkanlarından yararlanmaq məqsədi ilə təşkil olunub. AzMİU-da ilk dəfə keçirilən sərginin tələbə və məzunlara karyera yolunda ilkin addımlarını atmaqda böyük dəstək verəcəyini vurğulayıb. "Sərgiyə universitetin əməkdaşlıq etdiyi dövlət qurumları, özəl şirkətlər, həmçinin ölkənin aparıcı müəssisələri qoşulub. Bu, çox təqdirəlayiq haldır. Bu cür sərgilər gənclərlə şirkətlər arasında körpü yaradaraq onların uğurlu karyera qurmaları üçün böyük önəm kəsb edir". Rektor AzMİU-da Karyera və Strateji planlaşdırma şöbələrinin fəaliyyət göstərdiyini və tələbələr üçün mütəmadi təlimlər, şirkət rəhbərləri, müxtəlif müəssisələrin insan resursları üzrə mütəxəssisləri ilə görüşlərin təşkil edildiyini qeyd edib.

1500-dən çox tələbə və məzunun iştirak etdiyi sərgi böyük maraqla qarşılanıb. Sərgidə şirkət nümayəndələri təmsil olunduqları müəssisələrdəki vakansiyalar haqqında tələbələrə ətraflı məlumat veriblər. Xüsusilə iş axtarışında olan 4-cü kurs tələbələri bu sərginin onlar üçün çox vacib olduğunu, iş yeri tapmaq probleminin həllinə yardım edəcəyini vurğulayıblar. Sərginin gedişində iş axtarışında olan gənclər şirkətlərin insan resursları üzrə mütəxəssisləri ilə ünsiyyət yarada biliblər. Şirkət nümayəndələrinə yaxınlaşıb, özlərinə uyğun vakansiyalara CV-lərini təqdim ediblər.

Qeyd edək ki, karyera sərgisində müxtəlif şirkətlərin təmsilçiləri də potensial kadrlar seçmək imkanı əldə ediblər. Onlar tələbələrin vakant yerlərə maraq göstərdiklərini, şirkətlərin fəaliyyəti ilə tanış olduqlarını yaxşı hal kimi dəyərləndiriblər.

**Ramiz YUSİFLİ,**
**"Respublika".**

*Mixail Qusman:*

# Feyk xəbərlər sunamisi Yer kürəsini bürüyüb



**TASS agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman universitetlərdə jurnalistlərin gələcək nəslinə feyk xəbərlərlə mübarizənin tədris olunacağını istisna etmir.**

AZƏRTAC TASS agentliyinə istinadla xəbər verir ki, M.Qusman bu fikri RF Prezidenti yanında Rusiya Xalq Təsərrüfatı və Dövlət Qulluğu Akademiyasında keçirilən ustad dərsində ifadə edib.

"Əminəm ki, yaxın vaxtlarda jurnalistika fakültələrində "Feyk xəbərlər və onlarla mübarizə" fənni tədris olunacaq. İndi bu cür fənn olmasa da, o, artıq yetişib və bu məsələdən qaçmaq mümkün deyil", - deyə M.Qusman qeyd edib. Onun sözlərinə görə, feyk xəbərlərin yayılmasının mənbəyi bir çox hallarda sosial media olur. "Sosial şəbəkələr insanların kommunikasiya formasıdır, lakin problem ondan ibarətdir ki, biz hələ bu kommunikasiya sistemində necə yaşamağı yaxşı başa düşmürük... Düşünürəm ki, siz də artıq bir çox hallarda sosial şəbəkələrdən qərəzli istifadə olunmasının şahidi olmusunuz... Feyk xəbərlərin bu dalğası, daha dəqiq desək, artıq sunamisi Yer kürəsini bürüyür. Bu, qorxunc bəladır və biz sosial şəbəkələrdən aldığımız feyk xəbərlərin ağlagəlməz təsiri altındayıq", - deyə jurnalist əlavə edib.

TASS agentliyinin birinci müavini qeyd edib ki, feyk xəbərlərlə mübarizəni informasiyaların müstəqil şəkildə yoxlanılmasından başlamaq lazımdır. O vurğulayıb: "Bu gün feyk xəbərlərə münasibətdə başlıca süzgəc bu informasiyaların hər biriniz tərəfindən qavranılmasıdır. İnformasiya insanların yaratdığı bir məhsuldur və bu məhsulun istehlakı zamanı diqqətli olmalısınız. Bu səbəbdən də feyk xəbərlərin müəyyən edilməsi və həyatınıza daxil olmasının qarşısını alan süzgəc məhz sizin bu informasiyanı qavramaq keyfiyyətidir. Yoxlayın və bir daha yoxlayın".

**AZƏRTAC**

# İnsanların sağlamlığı keşiyində



Ölkəmizdə bu gün bütün sahələrdə olduğu kimi, səhiyyə islahatları da uğurla davam edir, xəstəxana, poliklinikalar müasirləşir, tibbi kadrların hazırlanmasına maksimum səy göstərilir. Bir sözlə insanların sağlamlığı qorunub saxlanılır, müayinə və müalicələr dünya standartları səviyyəsində həyata keçirilir.

Xəstəliyə düçar olmuş insanların paytaxtda daha çox üz tutduğu səhiyyə ocaqlarından biri Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasıdır. Buradakı cərrah-endoskopik poliklinika şöbəsinə hər gün onlarca xəstələr gəlir, ağxalatlı ömür keşikçiləri onların sağlamlığı keşiyində müsəlləh əsgər kimi dayanırlar.

Biz şöbədə olarkən cərrah-endoskopist, insanların gözündə pillə-pillə ucalan **Fərahim Məmmədzadə** ilə görüşub söhbət etdik. Həmişəki kimi təcrübəli həkimin növbəsində dayananların sayı çox idi. Biz Fərahim həkimlə söhbət edərkən o bizi maraqlandıran məsələlərə aydınlıq gətirərək dedi:

—Deyə bilərəm ki, bütün xəstələr endoskopik şöbəsinə ümidlə gəlir. Çalışırıq ki, müayinə və müalicələrimiz səmərəsini versin, xəstələr klinikadan razılıqla ayrılsın. Vurğulamaq lazımdır ki, şöbədə endoskopik, kastroskopiya, kolomoskopiya müayinələri aparılır. Həzm sistemi darlıqlarının stend taxılması, daralmaların balonla genişləndirilməsi həyata keçirilir.

Şöbədə öd yollarının daşlarının xaric edilməsi uğurla həyata keçirilir, öd yolları daralmalarında stend çıxarılması yüksək səviyyədə icra olunur. Ümumiyyətlə xidmətimiz xəstələri razı salır, onlar üzləşdikləri xəstəliklərdən xilas olurlar.

Biz endoskopik şöbəsində Bakıdan, Gəncədən, Tovuzdan, Şəmkirdən və digər bölgələrdən müayinəyə gələn insanlarla görüşüb söhbət etdik. Onlar arasında yaşlı nəslin nümayəndələri çoxluq təşkil edirdi. Xəstələrlə söhbətimizi qələmə aldıq.

**Leyla Əmirahova (evdar qadın):**

—Bir çox xəstəliklər insanı qəflətən yaxalayır. Belə çətin məqamda hamının güman yeri tibb işçiləri olur. Səhhətimdə son vaxtlarda problemlər yaranıb. Sağ olsun, ağxalatlı ömür keşikçiləri, onlar məni xəstəlikdən xilas ediblər. Yaxınlarda mədəmdə ciddi ağrılar hiss etdim. Vaxt itirmədən cərrah Fərahim Məmmədzadəyə müraciət etdim. Onun şəfalı əlləri mənim narahatlığıma son qoydu. İndi özümü yaxşı hiss edirəm. Bu gün isə bu şöbəyə müayinə üçün gəlmişəm. Şükürlər olsun, hər şey öz qaydasındadır.

**Emin Muxtarov (əmək veteranı):**

—Öd yolunda qəflətən ağrılar hiss etdim. Vaxt itirmədən ailə üzvlərimizin məsləhəti ilə Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasına üz tutdum. Müayinəm yüksək səviyyədə aparıldı. Xəstəliyin yaranması səbəbi dəqiq müəyyənləşdirildi. Şöbədə mənə müalicələr təyin olundu. İndi hər şey öz qaydasındadır. Artıq yaşamaq, qurub-yaratmaq eşqim sönməyib. Tibb işçiləri şərəfli peşə sahibidirlər. Biz Fərahim kimi qayğıkeş, mehriban həkimlərlə fəxr edirik.

**Qədir ASLAN,**
**"Respublika".**

# "UNEC-100" - Strateji idarəetmə

Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) 100 illik yubileyinə qədər daha çevik və yüksək səmərəliliyə malik universitet idarəetmə sisteminə sahib olmağı hədəfləyib.

Bu məqsədlə "UNEC-100" İnkişaf Strategiyasında strateji idarəetməni tam şəkildə təmin etmək üçün strateji hədəflər və fəaliyyət istiqamətləri müəyyən edilib. 2030-cu ilə qədər UNEC-də insan resursları, maliyyə resursları və informasiya resurslarının idarəedilməsində səmərəliliyi davamlı yüksəltmək, həmçinin idarəetmə strukturunu optimallaşdırmaq nəzərdə tutulub.

Strategiyada insan resurslarının idarəetməsində səmərəliliyin əldə olunması üçün akademik və inzibati heyətin formalaşdırılması, onların vəzifə təlimatlarının hazırlanması, peşəkar hazırlıqlarının inkişaf etdirilməsi, məmnunluq səviyyəsinin davamlı nəzarətdə saxlanılması fəaliyyət istiqamətləri kimi təsbit olunub. Eyni zamanda əməyin motivasiya sistemlərinin davamlı təkmilləşdirilməsi, əməkhaqlarının artımının infilyasiya səviyyəsinə uyğunlaşdırılması, karyera yüksəlişində performans göstəricilərinin nəzərə alınması da bu istiqamətdə həyata keçiriləcək fəaliyyətlər sırasındadır.




Strategiyaya əsasən, UNEC maliyyə resurslarının idarəedilməsində səmərəliliyi yüksəltmək məqsədilə universitetin maliyyə mənbələrinin diversifikasiya edilməsi və artırılmasını, sərbəst maliyyə resurslarının səmərəli investisiyalara yönəldilməsini, təhsil haqlarının müəyyən edilməsində sərbəstliyin əldə olunmasını, maliyyə resurslarının idarəedilməsində fakültələrinin rolunun artırılmasını 2030-cu ilədək fəaliyyət istiqamətləri olaraq müəyyənləşdirib. Buraya həmçinin, UNEC Tədqiqat Fondunun inkişaf etdirilməsi, UNEC İanə Fondunun təsis olunması, Daxili və kənar audit mexanizmlərindən geniş istifadə edilməsi də daxil edilib.

UNEC-də İdarəetmənin İnformasiya Sisteminin qurulması, elektron xidmətlərin təhlükəsizliyi və keyfiyyətinin yüksəldilməsi, mobil tətbiqlərin dəstəklənməsi, "online" xidmətlərin çoxaldılması, ödənişsiz Wi-fi sahələrinin yaradılması, "Scopus" və "Ebsco" kimi elmi bazalara çıxışın təmin edilməsi informasiya resurslarının idarəedilməsində səmərəliliyin yüksəldilməsində fəaliyyət istiqamətləri kimi seçilib.

İnkişaf Strategiyasında UNEC-in 100 illik yubileyinədək universitetdə inzibati idarəetmə strukturlarının funksionallığının təmin olunmasının, meqafakültələrin formalaşdırılması prosesinin, eləcə də, kafedraların departament sisteminə keçidinin tamamlanması nəzərdə tutulub.

# Azercell IV Buktreyler Festivalının əsas tərəfdaşıdır

## *Kitabı tanıdın, kitabla tanının!*

Ölkəmizdə hər zaman innovativ ideyalara, bir çox layihələrə dəstək verən şirkət kimi tanınan Azercell IV Buktreyler Festivalının əsas tərəfdaşıdır. Festivalın məqsədi kitab və mütaliənin cəmiyyətimizdə təbliği, eləcə də mütaliəyə münasibətin yaradıcı formalarının inkişafı və dəstəklənməsi, kino sahəsində istedadlı və yaradıcı gənclərin (rejissor, operator, rəssam, aktyor, qrimçi və s.) üzə çıxarılması, buktreylerlərin incəsənət və biznesdə bir istiqamət kimi inkişafıdır. Yaşından asılı olmayaraq hər bir kəs sevdiyi Azərbaycan müəllifinin əsərinə buktreyler çəkib, onu festivalın rəsmi internet səhifəsində (www.booktrailer.az) qeydiyyatdan keçirməklə yarışmada iştirak edə bilər. Festivalın təşkilati dəstəkçiləri Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Beynəlxalq Muğam Mərkəzi və C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasıdır.

Bu ilki IV Buktreyler Festivalı iştirakçılar üçün bir yenilik təqdim edir. Belə ki, layihənin əsas tərəfdaşı olan ölkənin lider operatoru Azercell şirkəti "Ən Yaxşı Mobil Buktreyler" nominasiyası üzrə 1.000 AZN pul mükafatı ayırmışdır. Hər bir kəs istədiyi buktreyleri mobil telefona çəkib, bu nominasiya üzrə festivala müraciət etməklə 1.000 AZN məbləğində mükafat qazanmaq şansını əldə edə bilər.

Bir iştirakçı tərəfindən təqdim olunan buktreylerin sayına məhdudiyyət qoyulmur. İştirak şərtləri və tələbləri haqda məlumatı www.booktrailer.az rəsmi internet səhifəsindən və ya https://www.facebook.com/BooktrailerFest/ Facebook səhifəsindən əldə etmək olar. Həmçinin yaranmış bütün suallarla bağlı festival2019@booktrailer.az email ünvanına müraciət etmək




mümkündür.

Qeyd edək ki, Mədəniyyət Nazirliyi tərəfindən 1-ci yerin qailibi 1000 AZN, 2-ci yerin 2 qalibi 800 AZN, 3-cü yerin 3 qalibi 500 AZN dəyərində mükafat qazanacaq. Mobil telefonla buktreyler çəkmiş qalibi isə Azercell şirkəti tərəfindən "Ən Yaxşı Mobil Buktreyler" nominasiyası üzrə 1.000 AZN pul mükafatı gözləyir.

Buktreylerlərin son qəbul tarixi 1 aprel 2019-cu ildir.

---

## "Azərbaycan Sənaye Korporasiyası" ASC

"Azərbaycan Sənaye Korporasiyası" ASC-nin törəmə müəssisələri üçün 1C lisenziyalı proqram təminatının quraşdırılması işlərinin satınalınması təkliflər sorğusu üsulu ilə keçirir. Maraqlanan təşkilatlar Elnur.Quliyev-@ask.gov.az elektron ünvan və ya +994 (50) 220-72-75, +994 (12) 505-95-14 (daxili-124) telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Xidmətlərin qiymət təklifləri bağlı zərfdə, imzalanıb və möhürlənərək 01 mart 2019-cu il 10:00-dək təqdim olunmalıdır. Bakı şəh., Yasamal r-nu, Cəfər Cabbarlı küçəsi 40C

**"ASK" ASC-nin Tender Komissiyası.**

---

## "AZERGOLD" QSC

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 1 lot üzrə keçirilir: Lot 1 - Hacıkənd - "Tülallar" kəşfiyyat sahəsi üzrə qrunt yolun bərpası və həmin yollara cari il ərzində mütəmadi xidmət göstərilməsi işlərinin satınalınması**

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi peşəkarlığa, təcrübəyə, texniki və maliyyə imkanlarına, işçi qüvvəsinə, idarəetmə səriştəsinə və etibarlığa malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər lot üzrə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra ödəniş sənədini və tenderdə iştirak etmək üçün rəsmi müraciət ərizəsini "AzerGold" QSC-nin Tender Komissiyasına (Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H, Əlaqələndirici şəxs: Aygül Tağıyeva, Tel: 012-505-02-02 (dax.1108), I-V günlər, saat 09.00-dan 18.00-dək) təqdim etməklə Azərbaycan dilində tərtib olunmuş Əsas Şərtlər Toplusunu əldə edə bilərlər.

**İştirak haqqı: Lot 1 - 250 manat. İştirak haqqı heç bir halda geri qaytarılmır.**

*Hesab: AZ85PAHA38020AZNHC0190068658*
*VÖEN: 1403467421*
*Bank: "PAŞA Bank" ASC*
*Kodu: 505141*
*VÖEN: 1700767721*
*M/H: AZ82NABZ01350100000000071944*
*S.W.İ.F.T: PAHAAZ22*

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*4. Tender təklifi dəyərinin 1 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*5. İddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
*6. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və bank rekvizitləri;*
*7. Digər müvafiq sənədlər (Əsas Şərtlər Toplusunda müəyyən edilmiş müvafiq sənədlər).*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) təqdim olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) **03 aprel 2019-cu il saat 15.00-a qədər,** tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş, imzalanmış və ikiqat zərfdə olmaqla 2 nüsxədə (əsli və surəti) **11 aprel 2019-cu il saat 15.00-a qədər** "AzerGold" QSC-nin Tender Komissiyasına Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender üzrə təklif zərflərinin açılışı **12 aprel 2019-cu il saat 15.00-da** Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H ünvanında keçiriləcəkdir. İddiaçıların səlahiyyətli nümayəndələri açılışda iştirak edə bilərlər.

**"AzerGold" QSC, Tender Komissiyası.**

---

TƏKRAR

## AZƏRBAYCAN RESPUBLİKASI ƏDLİYYƏ NAZİRLİYİNİN QEYDİYYAT VƏ NOTARİAT BAŞ İDARƏSİ

## AÇIQ TENDER ELAN EDİR

**Tender predmeti** - 2019-cu il ərzində istifadə ediləcək müxtəlif növ dəftərxana ləvazimatlarının və təsərrüfat mallarının satınalınması

Malların, işlərin və xidmətlərin təchiz olunma müddəti - 2019-cu il ərzində.

Tender iştirakçıları öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etməlidirlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 200 manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Azadlıq prospekti 72 ünvanından (əlaqələndirici şəxs: Qasımova Yaqut Qorxmaz qızı, telefon: 404-42-03, faks: 441-02-36 ala bilərlər.

Tenderdə iştirak haqqı bütün hallarda geri qaytarılmır.

*Ədliyyə Nazirliyinin Qeydiyyat və notariat baş idarəsi*
*Hesab № AZ61CTRE00000000000002088403*
*VÖEN:1300498771*
*Bank adı: Dövlət Xəzinədarlıq Agentliyi*
*Kodu: 210005*
*VÖEN: 1401555071*
*Müxbir hesab: AZ41NABZ01360100000000003944*
*S.W.İ.F.T.BİK: CTREAZ 22*
*Büdcə təsnifatının kodu: 142340*
*Büdcə səviyyəsinin kodu: 7*

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü ərzində qüvvədə olmalıdır);*
*- tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü ərzində qüvvədə olmalıdır);*
*- Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq dövlət orqanının arayışı;*
*- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi (hüquqi şəxslər üçün), qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*- müvafiq mallar üzrə uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanunun tələblərinə uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi, bank təminatı istisna olmaqla) 14 mart 2019-cu il saat 17:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 28 mart 2019-cu il saat 17:00-a qədər Bakı şəhəri, Azadlıq prospekti 72, Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Qeydiyyat və notariat baş idarəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri Bakı şəhəri, Ədliyyə Nazirliyi Qeydiyyat və notariat baş idarəsində 29 mart 2019-cu il tarixdə saat 15:00-da açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri komissiyanın iclasında iştirak edə bilərlər.

---

TƏKRAR

## AZƏRBAYCAN RESPUBLİKASI ƏDLİYYƏ NAZİRLİYİNİN QEYDİYYAT VƏ NOTARİAT BAŞ İDARƏSİ

## AÇIQ TENDER ELAN EDİR

**Tender predmeti** - 2019-cu il ərzində daşınmaz əmlaka dair müqavilə, digər müqavilələr, tərcümə və sair blank formalarının tikilməsi üçün pərçim, üzərərinə xüsusi lent vurulan (Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Notariat yazısı ilə) xüsusi plastik qovluq, lövhələrin, müxtəlif növ kartriclərin satınalınması və printer, skan, surətçıxaran aparatlara il ərzində servis xidmətinin göstərilməsinin satınalması

Malların, işlərin və xidmətlərin təchiz olunma müddəti - 2019-cu il ərzində.

Tender iştirakçıları öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etməlidirlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 200 manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Azadlıq prospekti 72 ünvanından (əlaqələndirici şəxs: Qasımova Yaqut Qorxmaz qızı, telefon: 404-42-03, faks: 441-02-36) ala bilərlər.

Tenderdə iştirak haqqı bütün hallarda geri qaytarılmır.

*Ədliyyə Nazirliyinin Qeydiyyat və notariat baş idarəsi*
*Hesab № AZ61CTRE00000000000002088403*
*VÖEN:1300498771*
*Bank adı: Dövlət Xəzinədarlıq Agentliyi*
*Kodu: 210005*
*VÖEN: 1401555071*
*Müxbir hesab AZ41NABZ01360100000000003944*
*S.W.İ.F.T.BİK: CTREAZ 22*
*Büdcə təsnifatının kodu: 142340*
*Büdcə səviyyəsinin kodu: 7*

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü ərzində qüvvədə olmalıdır);*
*- tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü ərzində qüvvədə olmalıdır);*
*- Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq dövlət orqanının arayışı;*
*- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi (hüquqi şəxslər üçün), qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*- müvafiq mallar üzrə uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanunun tələblərinə uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi, bank təminatı istisna olmaqla) 14 mart 2019-cu il saat 17:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 28 mart 2019-cu il saat 17:00-a qədər Bakı şəhəri, Azadlıq prospekti 72, Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Qeydiyyat və notariat baş idarəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri Bakı şəhəri, Ədliyyə Nazirliyi Qeydiyyat və notariat baş idarəsində 29 mart 2019-cu il tarixdə saat 11:00-da açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri komissiyanın iclasında iştirak edə bilərlər.

---

## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 09.01.2019-cu il tarixdə keçirilmiş 3 lot üzrə "Bakı Metropoliteni" QSC üçün müxtəlif tipli avtomaşınlarının "Açıq Tender" üsulu ilə satın alınmasına dair müsabiqədə Lot-1. 1 ədəd - Qoşa kabinli bortlu yük-sərnişin avtomaşının satınalınması üzrə **"Ref Motors" MMC** qalib elan olunmuşdur və qalib gəlmiş təşkilat ilə ƏDV daxil 51200,00 (əlli bir min iki yüz manat 00 qəpik) məbləğində 15.02.2019-cu il tarixində müvafiq satınalma müqavilə imzalanmışdır.

**"Bakı Metropoliteni" QSC-nin Tender Komissiyası.**

---

## Şirvan şəhərində Əlillərin Regional Bərpa Mərkəzinin bərpa-gücləndirilməsi və əsaslı təmiri işlərinin satınalınması ilə əlaqədar Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 1 lot üzrə keçirilir:**

Şirvan şəhərində Əlillərin Regional Bərpa Mərkəzinin bərpa-gücləndirilməsi və əsaslı təmiri işlərinin (əsas bina, nasosxana, qazanxana, avadanlıq, sahədaxili xətlər, abadlaşma, xarici elektrik xətti) satınalınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Salatın Əsgərova küçəsi 85 (Əlaqələndirici şəxs Tender komissiyası (012) 596-44-09) ünvanından ala bilərlər.

**İştirak haqqı: Hər Lot üzrə 1500 (bir min beş yüz) manat**

*Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi*
*VÖEN: 1700093011*
*Bank: Dövlət Xəzinədarlığı Agentliyi*
*KOD: 210005*
*Müxbir Hesabı: AZ41NABZ01360100000000003944*
*VÖEN: 1401555071*
*SWİFT CTREAZ22*
*H/HESABİ: AZ80CTRE00000000000002138501*
*Büdcə gəlirlərinin təsnifat kodu - 142340*
*Büdcə səviyyəsinin kodu - 7*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*4. Tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır)*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*9. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
*10. Digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) 03 aprel 2019-cu il tarixdə saat 17:00-dək, tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş ikiqat zərfdə 11 aprel 2019-cu il saat 17.00-dək Bakı şəhəri, Salatın Əsgərova küçəsi 85 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 12 aprel 2019-cu il saat 15.00-da Bakı şəhəri, Salatın Əsgərova küçəsi 85 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

---

## Şəki şəhərində Əlillərin Regional Bərpa Mərkəzinin bərpa-gücləndirilməsi və əsaslı təmiri işlərinin satınalınması ilə əlaqədar Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 1 lot üzrə keçirilir:**

Şəki şəhəri Əlillərin Regional Bərpa Mərkəzinin bərpa-gücləndirilməsi və əsaslı təmiri işlərinin (əsas bina, nasosxana, qazanxana, avadanlıqlar, sahədaxili xətlər, abadlaşma, xarici elektrik xətti) satınalınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Salatın Əsgərova küçəsi 85 (Əlaqələndirici şəxs Tender komissiyası (012) 596-44-09) ünvanından ala bilərlər.

**İştirak haqqı: Hər Lot üzrə 1500 (bir min beş yüz) manat**

*Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi*
*VÖEN: 1700093011*
*Bank: Dövlət Xəzinədarlığı Agentliyi*
*KOD: 210005*
*Müxbir Hesabı: AZ41NABZ01360100000000003944*
*VÖEN: 1401555071*
*SWİFT CTREAZ22*
*H/HESABİ: AZ80CTRE00000000000002138501*
*Büdcə gəlirlərinin təsnifat kodu - 142340*
*Büdcə səviyyəsinin kodu - 7*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

